0/ —



SÖZÖNU

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRƏ ELMİN "BÖYÜK QAYIDIŞ"I

44 günlük Vətən müharibəsinin gedişində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə qəhrəman xalqımız və ordumuz tərəfindən ölkə tarixinin ən şərəfli səhifələrindən biri yazılmışdır. Müqəddəs Qarabağ torpaqları erməni işğalçılarından azad edilməklə 30 ilə yaxın həsrətə son qoyulmuş, tarixi ədalətin bərpası ilə yanaşı, regionun yeraltı və yerüstü, canlı və cansız, təbii və mədəni sərvətləri, daha doğrusu, bu sərvətlərin düşmənin məqsədyönlü talanından, bioloji və ekoloji, etnoqrafik terrorundan xilas edilmiş hissəsi, tarixi abidələrin qalıqları öz həqiqi sahibinə qaytarılmışdır.

Bu gün cənab Prezidentin sarsılmaz iradəsi və liderliyi ilə Qarabağ torpaqlarında yeni müasir infrastrukturun qurulması, smart kənd və şəhərlərin yaradılması, müxtəlif təsərrüfat sahələrinin təşəkkülü, "yaşıl" iqtisadiyyatın tətbiqi, tarixi, dini, mədəni abidələrin bərpası işinə artıq başlanılmışdır. Növbəti mərhələlərdə isə illərlə yurd-yuvasından didərgin düşmüş azərbaycanlı əhalinin Qarabağa qayıdışı, məskunlaşması və bu torpaqlarda milli tarixin və mədəni irsin yeni səhifələrinin yazılması mümkün olacaqdır. Bütün bu fəaliyyətlər işğal şəraitinin yaratdığı vəziyyətin, ermənilər tərəfindən törədilmiş ekoloji fəlakətin elmi cəhətdən əsaslı monitorinqi, qiymətləndirilməsi və sənədləşdirilməsi ilə paralel aparılmaqdadır. Qarabağın yenidən çiçəklənməsi, regionun biomüxtəlifliyinin, qiymətli flora və fauna nümunələrinin, meşələrinin, təbii landşaftlarının bərpası, qorunması və səmərəli istifadəsində, yeraltı və yerüstü təbii ehtiyatlarının öyrənilərək xalqın xidmətinə verilməsində, kənd təsərrüfatı istehsalının yenidən fəaliyyətə başlamasında Azərbaycan elminin üzərinə mühüm vəzifələr düşür. Bu vəzifələrin dəqiq müəyyənləşdirilməsi və səmərəli icrası üçün işğaldan azad olunmuş ərazilərdə elmi tədqiqatlar bərpa edilməli və onların gələcək inkişafına nail olunmalıdır.

Qarabağ bölgəsi özünün insan resursları, iqlimi, landşaft, flora və fauna müxtəlifliyi, bərəkətli torpaqları, şəfalı suları ilə həmişə seçilmişdir. Ən qədim insan məskənlərindən olan Azıx mağarasının, eləcə də bir neçə min illik təsərrüfatçılıq mədəniyyətini, dövlətçilik ənənələrini əks etdirən arxeoloji qazıntı yerlərinin, antik memarlıq nümunələrinin, nadir və itmək təhlükəsində olan bitki və heyvan növlərinin mövcudluğu bu bölgənin çoxşaxəli multidissiplinar tədqiqatlar üçün dəyərini daha da artırır.

Hələ Vətən müharibəsinin gedişində və qələbəmizdən sonrakı aylarda Qarabağın tədqiqi ilə bağlı bütün məsələlər Azərbaycan Milli Elmlər Akademiyasında respublikanın elmi ictimaiyyətinin geniş iştirakı ilə hərtərəfli müzakirə edilmiş və müvafiq qərarlar qəbul olunmuşdur. Bunlardan ən mühümü AMEA Rəyasət Heyətinin "Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə dair elmi tədqiqat işləri ilə bağlı AMEA-nın vəzifələri haqqında Fəaliyyət proqramı və Tədbirlər planı haqqında" 12 yanvar 2021-ci il tarixli 2/4 nömrəli qərardır. Bu qərara 14 bənddən ibarət "Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılacaq elmi tədqiqat işləri, elmtutumlu bərpa və quruculuq layihələri üzrə AMEA-nın Fəaliyyət Proqramı" və 90 bənddən ibarət "Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə dair elmi tədqiqat işləri ilə bağlı AMEA-nın vəzifələri haqqında Tədbirlər Planı" daxildir. Ölkədə elmin əlaqələndiricisi olan Azərbaycan Milli Elmlər Akademiyası ilə yanaşı, həmin qərarın icrasına həmçinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Nəqliyyat,

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və digər dövlət orqanlarının müvafiq strukturlarının da cəlb olunması nəzərdə tutulur.

Sənədə görə, regionda elmi, elmi-istehsalat qurumlarının təşkili, təhsil sisteminin yaradılması və formalaşdırılmasına dəstək göstərilməsi ilk tədbirlərdən olmalıdır. Çox təqdirəlayiq haldır ki, qeyd edilən qərarın əsas hədəfləri Azərbaycan Milli Elmlər Akademiyasının təşkilatçılığı ilə keçirilən "Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları: keçmişi, bugünü və gələcəyi" mövzusunda onlayn konfransın istiqamətləri sırasına daxil edilmişdir.

Konfrans materiallarına müvafiq elmi istiqamətlərə uyğun 118 tezis daxil edilmişdir. Bu tezislərin müəllifləri respublikanın müxtəlif elmi tədqiqat və təhsil müəssisələrini, o cümlədən AMEA-nın, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin elmi müəssisələrini, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyini, Azərbaycan Respublikası Energetika Nazirliyini, Bakı Dövlət Universitetini, Azərbaycan Dövlət Pedaqoji Universitetini, Azərbaycan Texniki Universitetini, Gəncə Dövlət Universitetini, Azərbaycan Tibb Universitetini və digər təşkilatları təmsil edirlər.

Mən bu gün konfrans iştirakçılarına çatdırmaq istəyirəm ki, Azərbaycan Milli Elmlər Akademiyası Qarabağda elmi tədqiqatların kompleks şəkildə aparılmasını təmin etmək üçün Qarabağ Elmi Bölməsinin yaradılması haqqında qərar qəbul etmişdir.

Məlumdur ki, 30 ilə yaxın müddət ərzində işğal altında qalmış ərazilərdə tədqiqatçılarımız tərəfindən hər hansı elmi iş aparmaq mümkün olmamış, region yalnız peyk vasitəsilə izlənmişdir. Ona görə də çap edilən tezislərin əksəriyyəti əsasən keçmişdə, 1991-ci ildən əvvəllər aparılmış tədqiqatlar və son illərin peyk çəkilişləri, regiona alimlərimizin azsaylı, ərazi cəhətdən məhdud xarakter daşıyan səfərləri, ehtimal yönümlü proqnozlar əsasında hazırlanmışdır. Lakin əlamətdar haldır ki, bəzi tezislər son aylar ərzində regionda aparılmış real monitorinqlərin nəticələrini əks etdirir.

Əminəm ki, "Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları: keçmişi, bugünü və gələcəyi" mövzusunda keçirilən onlayn konfransın materialları elmi ictimaiyyətin müvafiq məsələlərlə bağlı daha geniş müzakirələrinə rəvac verəcək, yeni dövr üçün məqsədlərin seçilməsinə, tədqiqat planlarının hazırlanmasına və həyata keçirilməsinə, regionun resurslarının effektiv istifadəsi üzrə təkliflərin işlənilməsinə yardım edəcəkdir.

Azərbaycan alimlərinin səfərbər edilməsi və Qarabağın bərpasına elmin real dəstəyinin təmin olunması ilə bir daha ürəklə deyə biləcəyik ki: Qarabağ Azərbaycandır!

**AMEA-nın prezidenti akademik Ramiz Mehdiyev**